İPƏK YOLU, No.4, 2022, səh.97-101

# H. MELVİLLİN "OMU" VƏ "MARDİ" ƏSƏRLƏRİNDƏ "POLİNEZİYA" MÖVZUSU

**Zöhrə Eyyubova**

Azərbaycan Universiteti, Xırdalan, Azərbaycan
e-mail: eyyubova.zohra@gmail.com

**Xülasə.** Məqalədə Melvillin "Omu" və "Mardi" əsərləri utopik kontekstdə təhlil olunmuşdur. Adı çəkilən romanların təhlili əsasında müəllifin təsvir etdiyi Polineziya həyatı, bu həyat tərzinin ağlarla ünsiyyətdən sonrakı vəziyyəti tədqiq edilmişdir. Romanlar yazıldığı dövrün aktual sosial, fəlsəfi və etik problemlərini işıqlandırır.

**Açar sözlər:** ədəbiyyat, romantizm, Polineziya, peyzaj.

**"POLYNESIAN" THEME IN "OMOO" AND "MARDI" BY H. MELVILLE**

**Zohra Eyyubova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article analyzes Melville's works "Omoo" and "Mardi" in a utopian context. Based on the analysis of the mentioned novels, the Polynesian life described by the author, the state of this lifestyle after communication with the whites was studied. Novels illuminate the current social, philosophical and ethical problems of the time when they were written.
**Keywords:** literature, romanticism, Polynesi, landscape.

**ТЕМА «ПОЛИНЕЗИЯ» В «ОМУ» И «МАРДИ» Г. МЕЛВИЛЛА**

**Зохра Еюбова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье анализируются произведения Мелвилла «Ому» и «Марди» в утопическом контексте. На основе анализа упомянутых романов полинезийской жизни, описанной автором, изучено состояние этого образа жизни после общения с белыми. Романы освещают актуальные социальные, философские и этические проблемы того времени, когда они были написаны.
**Ключевые слова:** литература, романтизм, Полинезия, пейзаж.

## 1. Giriş

"Omu" Amerika ədəbiyyatında antimüstəmləkəçilik ruhunda yazılmış ilk əsərlərdən biridir. Sonralar M.Tven pamfletlərində və C.London "Cənub dənizləri nağılları" toplusundakı novellalarla Melvillin əsasını qoyduğu antimüstəmləkəçilik mövzusu davam və inkişaf edir. "Omu" romanına yazdığı ön sözdə Melvill əsərin ideya məzmunu haqqında yazır: "məqsədi Xristianlığı qəbul etmiş polineziyalıların müasir durumunun həqiqi mənzərəsini təsvir etməkdir" [4, s.17]. Melvillin təsvir etdiyi mənzərə xristianlığı ifşa edirdi. Bu missioner cəmiyyətlərinin etirazlarına səbəb oldu. Onlar müəllifi saxtakarlıqda günahlandırırdılar. Lakin əsərdə öz bədii təcəssümünü tapmış faktlar həddindən artıq inandırıcı idilər. Xüsusi tədqiqatlar sübuta yetirdi ki, Melvill sivilizasiyanın aborigenlərin patriarxal həyatına müdaxiləsini təsvir edərkən həqiqətdən heç də uzaqlaşmamışdır.

Herman Melvillin "Omu" (1847) əsəri onun birinci kitabının davamı idi. O özü məktublarından birində yazırdı ki, birinci kitabda ibtidai utopik Polineziya həyatını, bu

əsərdə isə həyat tərzinin ağlarla ünsiyyətdən sonrakı durumunu təsvir etmişdir. Artıq “Taypi”də özünü büruzə verən utopiyaya inamsızlıq bir növ darmadağın olunmuş cənnət təsiri bağışlayan Taitinin mənzərəsi sayəsində daha da güclənir.

“Ağların peyda olması ilə bağlı labüd şəkildə yamanlığın bərqərar olması” mövzusu “Omu” əsərinin mərkəzi mövzusu idi. “Bu, insanların tənəzzülü, təbiətin məhvi, təbiətə yad qüvvələrin təzyiqi nəticəsində təbii harmoniyanın dağılması ilə bağlı romantik mövzu idi. Xəyalın gözəl dünyası xarabaya dönmüşdür. Taitilərin gələcəyi ümidsizliyə köklənmişdir” [4, s.158].

Bu əsərlə Melvill artıq Amerika ədəbiyyatında işlənmiş və ənənəyə çevrilmiş mövzuya müraciət edir. Amerikan materialı əsasında Kuper həmin mövzunu “Preriya” əsərində işləmişdir. ABŞ yazıçıları “dəmir əsr”in mahiyyəti ilə ən açıq formada üz-üzə gəlirdilər. Bu faciəvi proseslə səsləşən nümunədə ədalətin və insanlığın axtarışları pafosu güclənirdi. Həm Kuper, həm də Melvill artıq dünya ədəbiyyatında öz əksini tapmış mövzuya müraciət etsələr də, onu daha dərindən və hətta amerikan gerçəkliyinin materialı əsasında yarada bilmişlər. Həm “Preriya”da, həm də “Omu”da Skottun şotland keçmişi üçün nostalgiyaya köklənmiş əsərlərinə nisbətən tərəqqinin əsl təbiəti daha dərindən göstərilmişdir. Lakin nə Kuper, nə də Melvill təsvirin realist çoxcəhətliliyinə nail ola bilməmiş və Skott kimi zəngin xarakterlər yaratmamışlar. Gerçəklər “Omu”da statik xarakter daşıyır və personajlar romantik xarakter yaratma prinsipi əsasında təsvir olunurlar. Yəni onların dominant cəhəti qabardılır. Melvillin təsvir etdiyi durum həqiqəti əks etsə dəç tipik səciyyə daşımır.

“Preriya” ilə “Omu” arasında köklü fərq var. Bu fərq bütövlükdə Amerika ədəbiyyatının inkişafını hiss etməyə imkan verir. Bu, xüsusilə Melvillin Polineziyaya həsr olunmuş əsərlərinin özünəməxsusluğunu vurğulamağa imkan yaradır. Kuperin əsərlərində romantik yaradıcılıq metodu üçün səciyyəvi olan personajlar təsvir olunurlar. Burada yüksək ehtiras hiyləgərliklə və alçaqlıqla üz-üzə gəlir. Bu isə şərti, ətdən-qandan xali qəhrəmanlar üçün meydan açır. Kuperin romantik təxəyyülü həqiqətəuyğunluğun dar çərçivəsinə sığmır. Onun təsvir etdiyi süni durumların arxasında real həyatı güclə sezmək olur [5].

Ağlar gələnə qədər mövcud olan və Kuper tərəfindən həddən artıq idealizə olunan Amerika hindlilərinin gerçəkliyi yoxa çıxır. Bu təkcə Kuperin səmimi şəkildə hindlilərə ürəyi yanması ilə bağlı deyil, həmçinin romantik dualizmin tələbləri ilə bağlıdır. Melvillin də əsərində Polineziyanın müstəmləkəyə çevrilməsinin faktoqrafik xronikasının mövcudluğu və həmçinin amerikan ticarət gəmilərində məişətin və adətlərin təsviri ilə dəqiqləşdirilir. Bununla da Melvill Kuperə və digər romantiklərə xas olan müstəsnalığa can atmanı dəf edir və nəticədə həqiqət elementi xüsusi çəki kəsb edir. Romantik kimi Melvill materialın yeniliyini və rəngarəngliyini qabardır, Taiti məişətinin ekzotik cəhətlərini bütün təfərrüatı ilə təsvir etməyə çalışır. Matrosların portretlərində romantiklər

üçün səciyyəvi olan bir planlılıq hökm sürür. "Onların hamsı qorxaqlardır. Onları hər gün təhqir edirlər, onlar da əvəzini yerli əhalidən çıxırdı." [2, s.457]. "Omu"nun kompozisiyası da şərtiliyini büruzə verir. Əsər tədricən cənub dənizlərində dənizçilərin sərgüzəştlərindən sivilizasiyanın yerli əhaliyə etdiyi mənfi təsir haqqında traktata çevrilir. Bu ideya müəllifin epizodlar arasında ifadə etdiyi mövqeyi ilə təsdiq olunur.

Kitabın oçerk prinsipi əsasında qurulması amerikan romantik ədəbiyyatında tamamilə yeni hadisə idi. Bu əsərdə fövqəlbədii janrlarla təmasdan yeni bir bədii keyfiyyət yarandı: ikidünyalılıq artıq ideallıq və reallıq arasında parçalandığını bildirmişdir. Emprikanın başlanğıcı və prinsipi ədəbiyyatda özünəməxsus şəkildə təcəssüm olunmağa başladı. Sonralar bunlar Melvillin poetikasının əsas cəhətlərini müəyyən etməklə yanaşı bütövlükdə amerikan nəsrinin aparıcı xüsusiyyətlərindən birinə çevrildilər.

Yeri gəlmişkən, "Mobi Dik" əsərində həyata keçirilən sintez yolunda Melvill daha bir neçə eksperimentdən keçməli oldu. Bu eksperimentlər əslində müəllifin dövrün fəlsəfi mübahisələrində öz yerini tapması ilə bağlı meydana gəlmişdilər. Melvill "Mobi Dik"dən əvvəl "Mardi", "Redbern" və "Ağ buşlat" əsərlərini yazmışdı. Onların hər üçü ədəbi cəhətdən uğur qazana bilmədilər. Lakin onlar müəllifin həmin uğursuzluqlarından aldıqları dərs baxımından diqqəti cəlb edirlər [3].

"Mardi və oraya səyahət" (1849), "Taypi" və "Omu" ilə birlikdə silsilənin üçüncü cildini təşkil etməli idi. C.Marriyə yazdığı məktubda Melvill göstərirdi ki, bu əsərdə o, ekzotik ölkələrdə rast gəldiyi bütün poetik, romantik və qəribə cəhətləri təcəssüm etməyi nəzərdə tuturdu [1]. O dövrdə Melvill Avropa və ingilis klassiklərinin əsərlərini mütaliə edirdi. Görünür bu əsərlər müəllifə dərin təsir göstərmişdilər. Təxminən 50-ci fəsildən əsərin kompozisiyasında kəskin dönüş yaranır. Bu fəsildən başlayaraq müəllif çarla, tarixçi ilə, filosofla və şairlə birlikdə əsərin qəhrəmanının vurulduğu və qəflətən yoxa çıxan qızın axtarışlarına həsr olunmuşdur. Bu axtarışlar qəhrəmanın həyatı dərk etməsi ilə başa çatmalı idi. Arxipelaq isə bu baxımdan kainatın metaforudur və baş qəhrəmanın səyahəti onun həyatın mənasını dərk etməsi ilə başa çatmalıdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, kitabın birinci hissəsi dəniz romanının bitkin nümunəsi hesab oluna bilər. Bu hissə F.Kuperin "Losman" və xüsusilə E.A.Ponun "Artur Qordon Pimin sərgüzəştləri" əsərini xatırladır. Melvillin əsəri ilə Ponun novellasının səsləşməsi şüurlu xarakter daşımır. Çünki Melvillin öz həmkarının əsəri ilə tanışlığı barədə heç bir təsdiqlənmiş məlumat yoxdur. Lakin bunla belə "Mardi" əsərində oxucunun gözləri qarşısında alleqorik dəniz səyahəti baş verir. Melvill "Mobi Dik" və müəyyən qədər "Ağ buşlat" əsəri sayəsində dünyanın ən məşhur marinistlərindən biri kim dünya ədəbiyyatı tarixində ən yüksək yerlərdən birini tutur. Lakin bununla belə "Mardi" əsəri adı çəkilən romanlardan heç də geridə qalmır.

Heç bir səbəbə əsaslanmadan əsərin janrının dəyişdirilməsi "Mardi" əsərinin bədii keyfiyyətinə mənfi təsir göstərir. Bu əsərdə Melvill öz gücünü təmiz məcaz sənətində sınamaq qərarına gəlir və bu onun yaradıcılıq imkanlarına cavab verməməsi nəticəsinə

gəlir. Melvill göstərirdi ki, "Mardi" bir növ epik poemadır və hər bir oda ayrıca nəğmədir. Lakin oxucular əsəri layiqincə dəyərləndirmədilər, ona münasibət son dərəcə soyuq idi və yalnız Notorn yazırdı ki, "Bu zəngin kitabdır. Onda elə dərinliklər var ki, var gücü ilə üzmək lazımdır ki, batmayasan." [6, s.73].

Notornun əsərə verdiyi dəyər son dərəcə dəqiqdir, çünki "Mardi" romanı qismən alleqorik, qismən də satirik səciyyə daşıyıb dünyanın o dövrdəki mənzərəsini əks edir. Kitab eyni zamanda fəlsəfi traktat və utopiyadır. Diqqətlə fikir verildikdə məlum olur ki, Melvillin ən böyük əsərləri olan "Mobi Dik"in və "Pyer"in bütün kolliziyaları "Mardi"də öz təcəssümünü tapmışdır.

Artıq Polineziya adını daşıyan Tayanın təhkiyəçi kimi təqdim olunması sənətkarın bədii kəşfi idi. Taya bir tərəfdən müəllifin real həyat təcrübəsini əks etdirir. Digər tərəfdən o, etik həqiqətin axtarıcısıdır. O funksiyalar baxımından əsərdə tamamilə şərti səciyyə daşıyan konfiliktlər məcmusudur. Özü də bu konfiliktlər sosial yox, daha çox metaforik səciyyəyə malikdirlər. O, hadisələrin iştirakçısından daha çox onların müşahidəçisidir. Bu baxımdan Taya "Mobi Dik" romanındakı İzmail obrazına yaxındır.

"Mardi" əsərinin kompozisiyasının fraqmentarlığı Melvillin yaratdığı yüksək sənət əsərləri üçün əsasdır. Bu əsərdə müəllif hələ hərəkətə köklənmiş səhnələrin, ricətlərin, daxili monoloqların, dramatik kulminasiyaların bir-birlərini əvəzləməsinin ritmini tapıb tətbiq edə bilməmişdir. Bütün bunlar sonralar "Mobi Dik" romanında öz bədii həllini tapmışdır. Lakin artıq "Mardi"də Şekspirin, Rablenin, Sviftin dərsləri açıq-aydın özünü büruzə verir. Melvillin özü bu sənətkarlardan yaradıcı şəkildə müəyyən cəhətləri əxz etdiyini gizlətmir.

Bütün bunlardan əlavə "Mardi" əsəri yazıldığı dövr üçün aktual olan sosial, fəlsəfi etik problemləri ehtiva edir. Melvill səyyahların hər birinə öz nəzər nöqtələrini aydın şəkildə ifadə etməyə imkan yaradır. Öz mövqeyini isə sənətkar bəzən interlyudada, bəzən isə filosofun dili ilə ifadə edir. Nəticə olaraq təhkiyəçi bütün göstərilən mövqelər arasında seçim etmək imkanı əldə edir. "Mardi"də aparıcı fikirlərdən biri dünyanın misli görünməmiş mürəkkəbliyə malik olması ilə bağlıdır.

Beləliklə, Herman Melvillin "Omu" və "Mardi" əsərlərinin təhlili dövrün romantik ədəbiyyat nümunələrində utopik janrın istifadəsi ilə xarakterizə olunur. Müəllifin adı çəkilən əsərlərdə başlatdığı ideyalar onun sonrakı romanlarında da öz təcəssümünü tapmışdır.

## Ədəbiyyat

1. Melville H. Mardi and a Voyage Thither. Northwestern University Press, 1970, 729 p.
2. Melville H. Romances of Herman Melville: Typee, Omoo, Mardi, Moby-Dick, White-Jacket, Israel Potter, Redburn. New York, Tudor Pub. Co., 1931, 1660 p.
3. Melville H. The letters of Herman Melville. Yale University Press, 1960, 398 p.

4. Melville H. Omoo: A Narrative of Adventures in the South Seas Penguin Classics, 2007, 374p.
5. Cooper J.F., The prairie, Stringer and Townsend, New York, 1856, 288 p.
6. Jay Leyda, The Melville Log: A Documentary Life of Herman Melville 1819-1891, Harcourt, Brace & Co, 1951,494 p.